


**Müqayisəli Ədəbiyyatşünaslıq**

**Comparative Literature Studies**

ISSN : 2663-4414 E-ISSN : 2709-0762
Nəşr edən/Publisher : AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

Cild/Vol, 2, Sayı/No. 2, 95-106, 2025
DOI: https://doi.org/10.59849/2663-4414.2025.2.95

Araşdırma Məqaləsi / Research Article

# Hüseyn Nihal Atsız Və Rüstəm Behrudi Poeziyasında Türkçülük Və Turançılıq

# Turkism And Turanism in Huseyn Nihal Atsiz's And Rustem Behrudi's Poetry

**Hicran Əhməd**
**E-mail:** ahmedova_hicran@mail.ru
**Tel:** +99451 445 51 51
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

Məqalənin gəldiyi tarix/Received: 24.11.2025
Qəbul tarixi/Accepted: 15.12.2025
Nəşr tarixi/ Available Online: 24.12.2025

**Xülasə:** Tarixin müxtəlif dönəmlərində yaşamalarına baxmayaraq, türkçülük Hüseyn Nihal Atsız və Rüstəm Behrudi yaradıcılığında bir körpüdür. Hüseyn Nihal Atsız və Rüstəm Behrudi türk milliyyətçiliyinin ən önəmli şəxsiyyətlərindəndirlər. Bu məqalədə türk birliyinin nəhəng inanclı keşikçisi Hüseyn Nihal Atsızın “Yolların sonu”, “Mekaleler III”, Azərbaycanın lirik və fəlsəfi şairi Rüstəm Behrudinin “Şaman duasından dar ağacına”, “Qızıl alma”, “Mükəmməl yalan” adlı kitablarına istinad edilərək Hüseyn Nihal Atsız və Rüstəm Behrudi poeziyasında türkçülük və turançılıq məfkurəsi incələnmişdir. Tədqiqat zamanı Hüseyn Nihal Atsız və Rüstəm Behrudi poeziyasının çoxşaxəli bir poeziya olduğu anlamına gəlinmişdir, burada həm vətənpərvərlik, həm də sevgi ruhunda yazılmış şeirlər türk gəncliyinə böyük təsir göstərə biləcək qədər dərin duyğular, yüksək düşüncələr oyadan bir qavramdadır.

Hüseyn Nihal Atsızın istər romanlarında, istərsə də şeirlərində, o cümlədən Rüstəm Behrudi poeziyasında dastanların, şifahi xalq ədəbiyyatının təsiri özünü göstərmişdir. Rüstəm Behrudinin qoşma janrında yazdığı şeirləri və bu şeirlərdə qolça qopuza and verməsi, Hüseyn Nihal Atsızın romanlarında Qara Ozanın dili ilə söylədikləri şifahi xalq ədəbiyyatı nümunələridir. Hüseyn Nihal Atsız və Rüstəm Behrudinin şeirlərində yurd, vətən qavramları önəmli yer tutur. Hüseyn Nihal Atsız və Rüstəm Behrudi gənclərdə milli şüur, milli ruhu aşılamaq üçün şeirlərində Kür Şad, Kül Tekin, Tonyukuk, Mete, Atilla v.s. türk qəhrəmanlarının adını çəkmiş, türk qəhrəmanları üçün savaşın bir həyat tərzi olmasını poetik dildə ifadə etmişlər. türkçülük və turançılıq Hüseyn Nihal Atsız və Rüstəm Behrudinin nəinki poeziyasında, bütövlükdə yaradıcılığında ana xətti təşkil edir, türkçülük, turançılıq, türk millətçiliyi, bütün türklərin birləşməsi idealı olaraq bu şairlərin şeirləri vasitəsilə beyinlərə və könüllərə şüurla yerləşdirilərək gerçəkləşəcəyi zamanı gözləyir.

**Açar sözlər**: *türkçülük, turançılıq, millətçilik, ideal, vətən*

**Abstract:** Despite living in different periods of history Turkism is a bridge in the creativity of Huseyn Nihal Atsiz and Rustam Behrudi. Huseyn Nihal Atsiz and Rustam Behrudi are the most important figures of Turkish nationalizm. In this article, referring to the books of Huseyn Nihal Atsiz who is a great believer of Turkish unity, “The end of the roads”, “Articles III”, “From shaman's prayer to the gallow”, “Golden apple”, “Perfect lie” by Azerbaijani lyrical and philosophical poet Rustam Behrudi, the ideology of Turkism and Turanism in the poetry of Huseyn Nihal Atsiz and Rustam Behrudi has been eloborated. During the research, it was understood that the poetry of Huseyn Nihal Atsiz and Rustam Behrudi is a multifaceted poetry, so that the poems written in the spirit of both patriotism and love have a concept that evokes deep emotions and high thoughts that can have a great impact on Turkish youth.

In Huseyn Nihal Atsiz's novels and poems as well as Rustam Behrudi's poetry, have a great influence of epics and oral folk literature. In the poem's written in the genre of oral folk literature by Rustam Behrudi, swearing to golcha gopoz, in Huseyn Nihal Atsız's novels in the language of the Black Ozan are examples of oral folk literature. İn the poems of Huseyn Nihal Atsiz and Rustam Behrudi the concepts of homeland and Motherland occupy an important place. Huseyin Nihal Atsız and Rustam Behrudi mentioned the names of Turkish heroes such as Kur Shad, Kul Tegin, Tonyukuk, Mete, Atilla, etc. in their poems to instill national consciousness and national spirit in the youth, and expressed in poetic language that war was a way of life for Turkish heroes. Turkism and Turanism constitute the main line not only in the poetry of Huseyn Nihal Atsız and Rustam Behrudi, but also in the entire creativity. Turkism being Turkish nationalism, and Turanism the unification of the Turks, are waiting for the time and coming true when these poets will settle in the minds and hearts through their poems.

**Keywords:** ***turkism, turanism, nationalism, ideal, homeland***

**Cite as(APA 7):** Əhməd, H. (2025). Hüseyn Nihal Atsız Və Rüstəm Behrudi Poeziyasında Türkçülük Və Turançılıq. *Müqayisəli ədəbiyyatşünaslıq*, *2*(2), 95-106. https://doi.org/10.59849/2663-4414.2025.2.95

**Giriş / *İntroduction:*** Türkçülük Türk xalqlarının dil, ədəbiyyat, mədəni birliyini, bu birliyin inkişaf və yüksəlişini nəzərdə tutan bir ideologiyadır. Turançılıq isə bu birliyi coğrafi çərçivə daxilində hədəfləyən bir ideologiyadır. XIX əsr türk dünyasının fikir adamı İsmayıl Qaspiralı hələ 1883-cü ildə nəşr etdiyi "Tərcüman" qəzetində ilk dəfə olaraq türk xalqlarının vahid ideya və maraqlar uğrunda mübarizə aparmaq üçün birləşmək fikrini irəli sürmüşdür. XX əsrin əvvəllərində Türk dünyasının görkəmli mütəfəkkirləri Yusif Akçura və Əli bəy Hüseynzadə bu ideologiyanı davam etdirmişdir. Əli bəy Hüseynzadənin "türkləşmək, islamlaşmaq və müasirləşmək" çağrısı türkçülük, turançılıq ideologiyasının bütün türk xalqları üçün böyük hədəf olduğunu göstərmişdir.

"*Türklər milli, dini və insani duyğulara bağlı qalaraq bunların ahəngi içərisində Cahan hakimiyyəti idealına inanmış, əsrlər boyu ədalətli və insani dünya nizamı məfkurəsi və onun tətbiqi sayəsində dünya tarixində danılmaz dövlətlər və imperatorluqlar yaratmışlar. Əgər Türklərin cahan hakimiyyəti ideologiyası ədalətə, insanlıq duyğularına, millətlərin arzu və istəklərinə əsaslanmasaydı, Türk hakimiyyətinin əzəmət və qüdrətinin uzun əsrlər boyu yaşaması da mümkün olmazdı, Türk olmaq hələ Türkü sevmək, onun yüksəlməsinə çalışmaq demək deyil, Türkü sevmək, onun yüksəlməsinə çalışmaq ilk öncə ona vəcdlə vurğunluqdan keçir. Bu vəcdlə vurğunluğun əsasında Türkün tarixini, dilini, ədəbiyyatını, mənəvi dəyərlərlərini dərindən öyrənmək durur*" (Qasımlı, 2012, s. 11).

E.Babayevanın qeyd etdiyi kimi, bu ideoloji xətt ədəbiyyatda da öz əksini tapmış, xüsusilə XX əsrin əvvəllərində formalaşan Milli ədəbiyyat dövrü (1908–1923) türkçülük və milliyyətçilik ideyaları üzərində qurulmuş, Ziya Gökalp, Mehmet Əmin Yurdakul, Xalidə Ədib Adıvar, Mufidə Fərid Tək, Əhməd Hikmət Müftüoğlu, Nihal Atsız kimi yazarların əsərlərinin əsas mövzusuna çevrilmişdir (Babayeva, 2022, s. 426).

XX əsrin əvvəllərində formalaşan türkçülük ideyası, müxtəlif coğrafiyalarda yaşayan türklərin ədəbi yaradıcılığında ümummilli kimlik ideyasını gücləndirmişdir. Bu konsept həm Osmanlı, həm Qafqaz, həm də Orta Asiya məkanında yazarların əsərlərinə ortaq ideoloji istiqamət vermiş, ədəbi mətnlər arasında "ruhi yaxınlıq" yaratmışdır. Türkçülük konsepti ortaq tarixi keçmişi, ortaq etnik yaddaşı birləşdirərək ayrı-ayrı milli ədəbiyyatların paralel inkişafı üçün şərait yaratmışdır. Bu isə Türkiyə, Azərbaycan, Krım, Tatar, Başqırd, Qazax, Qırğız və digər türk xalqlarının ədəbi irsini bir-birinə yaxınlaşdırmış, nəticədə geniş mənada "türk dünyası ədəbi mirası" yaratmışdır. Bu məqalədə Türk ədəbi irsinin nümayəndələri Hüseyn Nihal Atsız və Rüstəm Behrudinin poetik yaradıçılığında ortaq milli dəyərlər müqayisəli şəkildə araşdırılmışdır.

İyirminci yüzildə Türk millətinin dilini, ədəbiyyatını, tarixini, milli dəyərlərini dərindən bilən, Türk millətçiliyinin ən qüvvətli təmsilçilərindən biri Hüseyn Nihal Atsızdır. Türk millətçiliyi fikrini, Türk ideologiyasını yaymaq uğrunda apardığı mübarizəsi Hüseyn Nihal Atsızı türkçü, turançı, şair, yazıçı, tarixçi etmiş, o, çox dəyərli əsərlər yazmışdır. Hüseyn Nihal Atsızın nəinki romanları, publisistikası, bütövlükdə yaradıcılığı gənclərdə milli şüur, milli dəyərlərin aşılanmasına hədəflənmişdir. Hüseyn Nihal Atsıza görə millətin təməli əxlaqdır. "*Yüksək əxlaq milliyyətçiliyin ən əsas prinsiplərindən biridir. Bu səbəblə o, türklüyün ətrafını sarmış düşmən millətlər və qüvvələr qarşısında ancaq yüksək əxlaqlı, disiplinli, milli tarix şüuruna sahib, milli kimlik və xarakterini kosmopolitiklikdən qoruya bilən bir millət olaraq ayaqda qala biləcəyini ifadə etmişdir. Millətin müqəddaratı əsas məsələ olduğunda ən böyük vəzifə gəncliyə düşdüyü üçün gəncliyin əxlaqlı yetişdirilməsi çox önəmlidir*" (Atsız, 2023, s. 12).

**Əsas hissə / Main Part**

Hüseyn Nihal Atsızın tarixi romanları və məqalələrindən başqa türk gəncliyi üzərində ən təsirli ədəbi vasitə onun şeirləridir. Şifahi xalq ədəbiyyatının Hüseyn Nihal Atsızın şeirlərinə təsiri

böyükdür. Şifahi xalq ədəbiyyatı Türk millətinin bütün duyğu və düşüncələrini əks etdirən milli ədəbiyyatdır. Həyatları savaş, qəhrəmanlıqlarla keçən Türk millətinin tarixini, ədəbiyyatını yaxşı bilən Hüseyn Nihal Atsızın öz şeirlərini savaşa, qəhrəmanlığa, Türkçülük və Turançılığa həsr etməsi təbiidir. Hüseyn Nihal Atsız yazdığı şeirlərin çoxunu redaktoru olduğu "Atsız Məcmuə", "Orhun" jurnallarında yayımlamışdır. "*O, 1931-1933-cü illərdə 19 şeirin çoxunu, İrqçilik-Turançılıq Davasının davam etdiyi dönəmdə yazdığı 10 şeirdən 9-unu həbsxanada yazmışdır. 1934-1943-cü illlərdə 7 şeir, 1945-1975-ci illər arasında 14 şeir yazmışdır. Hüseyn Nihal Atsız 1946-cı ildə müxtəlif dərgi və qəzetlərdə çap etdirdiyi şeirlərinin çoxunu toplayaraq "Yolların sonu" adlı bir kitab nəşr etdirmişdir. İlk nəşrdə onun 38 şeiri yer almış. 1952-ci ildə kitabın 2-ci nəşri, 1968-ci ildə 3-cü nəşri çap edilmişdir. Daha sonra Hüseyn Nihal Atsızın əvvəlki nəşrlərdə yer almayan, çoxu dərgilərin səhifələrində qalmış ilk şeirləri, müxtəlif kitablarında, məktublarında və xatirələrində olan şeirləri əlavə olunaraq 76 şeirdən ibarət "Yolların sonu" şeir kitabı nəşr olunmuşdur*" (Atsız, 2023, s. 18)

Hüseyn Nihal Atsız və Rüstəm Behrudinin bütün şeirləri hər kəsin anlaya biləcəyi sadə bir dildə yazılmış, səlis, aydın və lirik üslubdan istifadə edilmişdir. Hüseyn Nihal Atsızın şeirləri məzmun baxımından incələnirkən onların toplum, xüsusilə də gənclik üçün yazıldığı aydın olur, bu şeirlər 2 qismə ayrılır: 1-cisi milli duyğu və düşüncələrini ifadə etdiyi şeirləri, 2-cisi şəxsi duyğu və düşüncələrini ifadə etdiyi şeirləri. Milli duyğu və düşüncələrini ifadə etdiyi şeirlərində ölüm və həyat, Türkçülük, Turançılıq, milliyyətçilik, Qızıl alma, yurd, vətən, tariximizə bağlılıq, savaş, qəhrəmanlıq və şəhidlik mövzuları öz əksini tapır. Bu mövzuların Rüstəm Behrudi poeziyasında da yer aldığını və davam etdirildiyini görürük. Hüseyn Nihal Atsızın poetik yaradıcılığı kimi Rüstəm Behrudi yaradıcılığı da Türkçülük və Turançılıq ideologiyası üzərində qurulmuşdur. Rüstəm Behrudi müasir Azərbaycan poeziyasında bu məfkurənin aparıcı daşıyıcılarındandır. O, "Mükəmməl yalan" kitabında yazır: "Turan və Turançılıq düşüncəsi türk etnosunu ayaqda tutan, onu yox olmağa qoymayan düşüncə formasıdır!" (Behrudi, 2021, s. 43). Hüseyn Nihal Atsıza görə isə "Türkçülük Türk milliyyətçiliyinin adıdır.(...) Türkçülük də türk sevgisi və tərəfdarlığı demək olduğuna görə başqa millətlərin türk tərəfdarlığı və türk sevgisi bu sözlə ifadə oluna bilməz. Türkçülük bir idealdır. İdeallar millətlərin mənəvi qidasıdır. İdeallar reallıqla xəyalların qarışmasından doğan, keçmişə baxaraq gələcəyi axtaran millətləri sürətləndirən və uğrunda can verilə bilən böyük arzudur" (Atsız, 2018, ss. 11-12). Müqayisədən göründüyü kimi hər iki şairin məfkurəsi Türkçülük və Türançılıq ideologiyası üzərində qurulmuşdur.

Hüseyn Nihal Atsız "Ötükən" dərgisinin 2-ci sayında nəşr etdiyi "Kömen" adlı şeirində yazır;

Ülkü uğrunda gönüller delidir,
Kişiler ülkü için ölmelidir,
Tanrının insana degmiş elidir,
Şu ölüm adlı güzel şey... Saralım (Atsız, 2023, s. 70).

Burada Hüseyn Nihal Atsız "ülkü" dedikdə Turançılıq ideologiyasını nəzərdə tutur. Rüstəm Behrudi isə bu ideologiyanın hədəfi olan Turan adlı məmləkəti belə ifadə edir: "Sibirdə ovçu bir yakut ilə ucsuz-bucaqsız çöldə heyvan bəsləyən bir qazax, Urumci yaxınlığında bir kənddə əkinçi ilə İstanbullu bir tüccar, bir Hun savaşçısı ilə VIII əsrdə Monqolustanda bir karvançı, XV əsrdə Azərbaycanda olan bir sufi, hürufi ilə XVI əsrdə Avropada savaşan bir Osmanlı paşası, çağdaş Altaylardakı bir şamanla kommunist şair Nazim Hikmət arasındakı bağın adı nədir? İki min ildən çox zaman içində qopub tükənməyən bu dağın şaman dualarına bürüdüyüm bircə ad var- Turan.

TURAN-Tilsimi biziynən açılacaq bir ölkə.
TURAN-Ruhu sözlərimdə çırpınan bir məmləkət! (Behrudi, 2022, s. 7).

Mən ona doğru yol gedirəm:

Yol gedirəm mən dəli,
Bu yol dəli, mən dəli,
Bu nə yoldu əvvəli
Və sonrası içində (Behrudi, 2021, s. 6).

Hüseyn Nihal Atsıza görə insan nə üçün yaşadığını anlamalı, ömrünü inandığı milli ideallara həsr edərək həyatına anlam qatmalı, bu ideallara çata bilməsə belə onlar uğrunda ölərək xoşbəxt olacağını düşünməli və öz vəzifəsini yerinə yetirməlidir:

Heç düşündün mü niçindir yaşamak?
Bir görev yapmak içindir yaşamak,
Er kişiysen görevin neyse, başar
Zevke, eglenceye hayvan da koşar  (Atsız, 2023, s. 70).

Hüseyn Nihal Atsız və Rüstəm Behrudi poeziyası bədii təsvir vasitəsilə Türk xalqının şanlı tarixini ədəbiyyata daşımış, şeir dili ilə Türk gənclərinə Türkçülük, milli ruh, milli şüur aşılamaq üçün Oguz, "Ərgənəkon, Alp er Tonqa kimi dastanlardan, Kür Şad, Kül Tekin, Tonyukuk, Mete, Atilla, Alparslan, Çağrı Bəy kimi milli qəhrəmanlardan bəhs etmişlər.

O nasıl bir yürüyüştür, ne yiğitler katarı!
Kun`u, Gök Türk`ü, Oğuz-Uyğur`u, Kirgiz, Tatar`ı..
O batırlar ki basıp bağra kuçaklar ölümü.
Özgelerden sakınıp kendine saklar ölümü.
Her zaman öyle ağırdır ki yigidlik kefesi,
Kahramanlar kibi ölmek o günün felsefesi...
Onların sanki başak canları...Durmaz, biçilir...
Torpağın içkisidir kanları al al içilir.
Tarihin bir olağanüstü ve şahane işi
Kür Şad`ın, Kül Tegin`in, Çağrı Beg`in ok çekişi... (Atsız, 2023, s. 73).

Hüseyn Nihal Atsız Ərgənəkon və Alp ər Tonqa kimi Türk dastanlarındakı mifoloji qaynaqları poetik vasitələrlə Türk milli kimliyinə gətirərək milli yaddaşın möhkəmlənməsində milli ideologiyanın poetik əsaslarını yaradır;

Çıkarıp Ergenekon`dan ulusu
Türk`ü kılsın yine dünya ulusu
İzleyip Görk Börü` nün gölgesini
Gezelim gel o komen ülkesini
Gönlümün özlemi yerdir orası
Gürler ufkunda yigitlik borası   (Atsız, 2023, s. 71).

Bu fikirlər  Rüstəm Behrudi məfkurəsində belə ifadə olunur:

Göy Tanrı, Qara xan, Oğuz, Güntəkin...
Tənəsi içdiyim bir anddan gəlir,
Mənim bu ruhumdakı bu üsyan, qiyam
Tanrıqurt Meteden, Gürşaddan gəlir (Behrudi, 2017, s.18).

Hüseyn Nihal Atsıza görə bir millət keçmişiylə öyünməzsə, başqalarından üstün olmaq istəməzsə, milli idealı üçün savaşı gözə almasa, savaşdan qorxarsa o millət içindən çürümüşdür (Atsız, 2023, s.12). Buna görə də Atsız düşünür ki, böyük Türkçülük idealı və inancı ilə yetişən gənclik sayəsində Türkçülük yenidən gerçəkləşəcək, Türklər türkçülüklə güclənəcək, qurtulacaq və irəliləyəcəkdir. Egey dənizindən Altaylara qədər bütün Türk gəncliyinə müraciət edərək "Türk gəncliyinə" şeirində yazır:

Yer bulmasın könlunde ne ihtiras, ne heset
Sen bütün varlığınla yurdumuzun malısın.
Sen bir insan degilsin; ne kemiksin, ne de et;
Tunçtan bir heykel kibi ebedi kalmalısın.

Yaxud həmin şeirin başqa bir bəndində;

Ölümlerden sakınma, meyus olmaktan utan!
Bir kere düşün nedir seni dünyada tutan?
Mefkuresinden başka her varlığı unutan
Kahramanlar gibi sen, ebedi kalmalısan (Atsız, 2023, s. 90).

Atsız və Behrudi yaradıcılığında "ölüm" mövzusu qəhrəmanlıq, şəhidlik məfkurəsi kimi ortaq bir mövqedə durur. Rüstəm Behrudi poeziyasının Türk kimliyi, milli və tarixi yaddaş, türk həmrəyliyi, müqəddəslik, şəhidlik kimi əsas motivləri arasında "ölüm" motivinə daha çox rast gəlirik. Onun 1989-cu ildə yazdığı "Salam, dar ağacı!" şeiri Türkçülük və Turançılığın poetik ifadəsi baxımından əhəmiyyətli bir nümunə və bu məfkurəyə Rüstəm Behrudi möhürü, eyni zamanda, Azərbaycan poeziyasında milli kimlik, azadlıq, şəhidlik və ölüm məsələlərinə fəlsəfi yanaşmanın bariz nümunəsidir. Şeirdə "dar agacı" yalnız bir fərdin deyil, bir millətin "haqsızlıqla" məhv edilmək istəyinin, tarixi və qan yaddaşının simvoludur. Ağacla bağlı mifoloji təsəvvürlər türk etnoqrafiyasında, inanclarda da geniş əks olunub. "*Yakutlarda qayın ağacı yer ruhunun (Aan doydu–iççite) sığınacağı sayılır və bu ağaca at tükündən hörülmüş sicim (salama) bağlanırdı. Altaylar ağaca canlı məxluq kimi yanaşır, ağac ruhuna (aqaştın yesi) tapınaraq ona qurban verirdilər. Təbiətə ruhsal münasibət nəticəsində ağacların da öz icması və şaman ağacların (qam aqaş), başçı ağacların (paştık aqaş), ana, ata, əcdad ağacların mövcudluğuna inam vardı. Bir çox türk soylarında intişar tapmış ortaq motivlər etnik ənənənin ilkinliyini təsdiq edir. Altay yaradılış dastanlarında ay və günəşlə əhatə olunmuş doqquz budaqlı şaman ağacı, Abakan türklərində Dəmir dağda bitən yeddi budaqlı qayın ağacı təsvir olunur. Oğuz epik ənənəsində səmavi nurdan zahı olan ağacdan ilk insanların, o cümlədən mifik qəhrəman Buğu Təkinin doğulması epizodu yayılıb. Mifoloji qəhrəman Oğuzun ağac oğuşundan tapdığı qız (Yer yiyəsinin qızı) Göy xan, Dağ xan, Dəniz xanı dünyaya gətirir*" (Hacılı, 1982). Türk qaynaqlarından gələn bu motiv Rüstəm Behrudi poeziyasında da özünü göstərir.

Akademik İsa Həbibbəyli "Bütövlük və genişlik" məqaləsində yazır: "Rüstəm Behrudinin Salam, dar ağacı" şeirində onun yaradıcılığı üçün xarakterik olan milli-mənəvi bütövlük və genişlik anlayışları da öz əksini tapmışdır. Ümumiyyətlə, Rüstəm Behrudi Azərbaycanı böyük türk dünyası ilə birlikdə dərk və vəsf edir. "*Salam, dar ağacı" şeiri də Azərbaycanın azadlıq arzusunu türk dünyası xalqlarının böyük ümidləri səviyyəsində bütün genişliyi ilə ifadə edə bilən, mühüm ümumiləşdirmə imkanlarına malik olan mükəmməl şeirdir*" (Behrudi, 2017, s. 16).

Türk mədəniyyətində, eləcə də Rüstəm Behrudinin "Salam, dar ağacı!" şeirində dar ağacı həm də "ölüm"ün simvoludur. Şeirdə "Ölüm" anlayışı şəhidlik, müqəddəslik kimi Türkçülüyün əsas komponentlərindən olan qəhrəmanlıq ruhunu ifadə edir. Əgər Türk inancına, kimliyinə ideyasına görə ölürsə, bu şərəfdir və bu zaman ölüm də özünün hərfi mənasını itirir, bu yanaşma türkçülük ideyasına uyğun olaraq "şəhidlik və müqəddəs ölüm" motivi ilə türk ruhunun ölməzliyini tərənnüm edir. Türkçülük ideologiyasında "şəhidlik" müqəddəs olmaqla yanaşı, milli dirənişin rəmzidir. Bu baxımdan şair dar ağacına salam verərkən "ölüm"ünə salam verir, milləti öz tarixi yaddaşı ilə üzləşdirir.

Xalq şairi Ramiz Rövşən yazır: "Hər kəs dar ağacına salam verə bilər. Ancaq dar ağacının salamını aldığı tək şair Rüstəm Behrudidir" (Behrudi, 2022, s. 23)

Hüseyn Nihal Atsız yaradıcılığında rast gəldiyimiz qəhrəmanlıq və şəhidlik ölümə qarşı dirəniş, dönməzlikdir. Ümumiyyətlə, Hüseyn Nihal Atsız XX əsr Türk ədəbiyyatında öz milliyyətçi düşüncələrini şeirlərində ən kəskin şəkildə ifadə etmiş köklü bir Türk milliyyətçisidir. Onun şeirləri təkcə gözəllik və hissiyyata, dünyaya dəyərlilik münasibətlərinin təzahürü məqsədini daşımır, bu şeirlər həm də Hüseyn Nihal Atsızın Türk gəncliyinə verdiyi ideoloji mesajların daşıyıcılarıdır. Hüseyn Nihal Atsızın 1933-cü ildə yazdığı "Kahramanlık" şeiri Türk millətinə xas olan qəhrəmanlıq hissini həm mənəvi, həm də fiziki baxımdan, ölüm qarşısında dönməzlik kimi təqdim edir.

Kahramanlık ne yalnız bir yükseliş demekdir,
Ne de yıldızlar gibi parlayıb sönmemektir.
Ölmezligi düşünmek boşuna bir emektir.
Kahramanlık: Saldırıp bir daha dönmemektir (Atsız, 2023, s. 78).

Hüseyn Nihal Atsız bu şeirdə qəhrəmanlığı sadəcə yüksəliş, sönməyən ulduz kimi daima parlayan, şan-şöhrət, ölməzlik hissi olaraq deyil, ölüm qarşısında dönməzlik, məqsəd yolunda ölməyi belə gözə alan bir insanın ruh halı kimi təqdim edir. Bu şeirin əsas mövzusu Türk gənclərinə qəhrəmanlıq anlayışının nə olduğunu anlatmaqdır.

Kahramanlık: İçerek acı ölüm tasından
İleriye atılmak ve sonra dönmemektir (Atsız, 2023, s. 78).

Bu misralarda Hüseyn Nihal Atsız qəhrəmanlığı böyük bir cəsarət kimi təqdim edir, ölümün acısını və dönməməzliyi qəbul edib, ona doğru atılmaq, geriyə doğru yolun olmadığı anı mənimsəmək risk, cəsarət tələb edir, şair şeirdə qəhrəmanlıq anlayışını fərdilikdən uzaqlaşdıraraq millətə bağlılıq kontekstində təqdim edir. "Kahramanlık" şeirini bədii ifadə vasitələri baxımından təhlil etdikdə görürük ki, Hüseyn Nihal Atsız şeirdə təkrir, metafora, təşbeh, antitezalardan geniş istifadə etmişdir. Belə ki, "qəhrəmanlıq" və "dönməmək" sözlərini hər bənddə işlədərək şerin təsir gücünü artıraraq təkrir, yaxud "ölüm tası" ifadəsində ölümü bir içki kimi təqdim edərək onu içmək isə bir fədakarlıq və cəsarət tələb edir fikrini aşılamaqla metofora yaratmışdır. Digər misrada "Yıldızlar kimi parlayıb sönmemek" ifadəsində təşbeh yaratmışdır. Tarixi kontekstdən yanaşdıqda isə şeir Türkçülük ideologiyasının gücləndiyi, milli kimlik müzakirələrinin artdığı bir dövrdə yazılmışdır. Hüseyn Nihal Atsız bu şeiri ilə Türk gəncliyinə milli kimliyini unutmayan, tarixinə və millətinə sahib çıxan, vətəni uğrunda canını verməyə hazır olan qəhrəmanlıq ruhunun formalaşması üçün bir ideoloji çağırış edir. Bu şeirdə "qəhrəmanlıq", "dönməmək", "ulduz kimi parlamaq" sözləri Hüseyn Nihal Atsızın Türkçülük ideologiyasının simvollarıdır, şeirdə əvvəldən sona qədər bir Türk millətçiliyi duyğusu hiss olunur.

Hüseyn Nihal Atsız 1931-1975-ci illər ərzində 4 jurnal nəşr etdirmişdir; "Atsız Məcmuə", "Orhun", "Orkun" və "Ötükən". 1964-cü ildən ölümünə qədər 113 sayı nəşr edilən "Ötükən" dərgisi bütövlükdə türkçülük və Turançılığa həsr edilmişdir. Dərginin ilk sayında Hüseyn Nihal Atsız "Türkçülük" adlı məqaləsində Türkçülüyün dörd qaynaqdan gəldiyini, bu qaynaqlardan gələn düşüncələrin bir-biriylə qarışıb yoğrularaq bugünkü Türkçülüyü ortaya qoyduğunu bildirmişdir. Hüseyn Nihal Atsıza görə "*həqiqi Türkçü olmaq asan deyildir, hər qarşına çıxan Türkçü olmadığı kimi hər Türkçüyəm deyən də Türkçü sayılmaz. Hər türkçü olduğu yerdə vəzifəsini inancla yerinə yetirərsə Türkçülük ülküsü sağlamlaşar və Türkçülük güclənər. Türkçülərin ilk işi isə vəzifələrini təmiz ürəklə yerinə yetirmələridir*" (Atsız, 2018, s.13)

Professor Əhməd Bican Ərculasun yazır: "Rüsrəm Behrudi...Bir şaman nəvəsi. Hüseynzadə Əli, Ziya Göyalp, İsmayıl Qaspiralı, Yusif Akçura...Bunların hamısı birər şaman nəvəsi deyilmi?" (Behrudi, 2015, s. 103).

Rüstəm Behrudi "Vida türküsü " şeirində yazır:

Bu gün Şaman imanını,
Öz içində Turanını,
Damarında Türk qanını
Zərrə-zərrə bulan gəlsin (Behrudi, 2017, s. 43).

Bu bənddə Rüstəm Behrudi türk xalqlarının qədim dini inancıları olan şaman imanı, Turan anlayışı və Türk qanı ifadələrini sintez edərək etnik, mənəvi bağlıq daşıyan insanların bir araya gəlməsini arzu edir. "Öz içində Turanını bulan" dedikdə bir ideya olaraq türk xalqlarının birliyini, ortaq vətən idealını simvollaşdırır. Bu da Ziya Göyalpın "*Vatan ne Türkiyedir Türklere ne Türkistan − Vatan böyük ve müebbet ülkedir: Turan!" misraları ilə səsləşir"* (Qasımlı, 2012).

Hüseyn Nihal Atsızın 1931-ci ildə yazdığı "Türklərin türküsü" şeiri də yüksək vətənpərvərlik, milli kimlik, tarix və birlik mövzularını ideoloji zəmin üzərində quran bir şeirdir. Bu şeir Türk millətçiliyi, Turançılıq ideologiyası ilə sıx bağlıdır. Şeirdə Türk millətinin gücü, əzmi, qorxmazlığı, fədakarlığı və fatehlik xüsusiyyətləri ifadə olunur, Türk millətinin kimsənin qarşısında boyun əyməməsi, yalnız Türk millətinin adət-ənənələrinə, qanunlarına itaət etməsi aşağıdakı misralarda öz əksini tapır, bu da tarixi köklərə bağlılıq, sadiqlik, milli dəyərlər, milliyyətçilik anlayışlarını əks etdirir.

Dilek yolunda ölmək Türklere olmaz tasa,
Türke boyun egdirir yalnız türeyle yasa,
Yedi ordu birleşip karşımızda parlasa,
Onu kanla söndürüb parçalarız, yenəriz (Atsız, 2023, s. 80).

Şeirdə "Dilek", "Yüce Dilek" sözləri Türklərin ali məqsədi Turana aparan Turançılıq ideologiyasına işarədir və Türklər üçün bu yolda ölüm şərəfli bir işdir. Sonuncu iki misrada yeddi ordunun birləşərək Türklərin qarşısına çıxması, türklərin bu döyüşü qanla söndürüb düşməni param-parça etməsi misraları Türklərin döyüşkənliyi, qorxmazlığı, qalibiyyət əzminin olduğu ideyasının təsviri və təbliğidir, eyni zamanda "parçalarız", "yenəriz" sözləri Türklərin düşmənə qarşı sərt, məğlubedilməz aşırı gücə sahib olduğunu ifadə edir. Hüseyn Nihal Atsızın "Türklerin türküsü" şeiri mifoloji, tarixi və ideoloji dərinliyə malik bir şeirdir. Belə ki, şair şeirin ikinci bəndində yazır:

Biz Turfanı yarattik uyku uyurkən Batı,
Nuh doğmadan kişnedi ordularımızın atı,
Sorsan şöyle deyecek gök denilen bu çatı:
Türk güçü bir yıldırım, Türk bilgisi bir deniz (Atsız, 2023, s. 80).

Hüseyn Nihal Atsız bu bənddə Türk millətinin tarixinin daha qədim, tanrıların və peyğəmbərlərin, hətta Nuh peyğəmbərin dövründən də əvvəl olduğunu, Türk sivilizasiyasının Qərbdən çox əvvəl mövcudluğunu ifadə edir. Şair şeirində "Nuh doğmadan kişnedi ordularımızın atı" dedikdə yalnız döyüşlərdə iştirak edən atlardan bəhs etmir. Şair, araşdırmaçı Namiq Hacıheydərli "Ümumtürk kültüründə At" məqaləsində yazır: "Ümumtürk kültüründə və eləcə də Azərbaycan kültüründə atın özəl yeri var.(...) Əski türk dastanlarında, əfsanələrində və digər janr yaradıcılığında at qədər adı keçən, öyülən, həyatının bütün məqamlarında özəl yeri olan və dünyanın harasında yaşamasından asılı olmayaraq bütün türk soylarına at qədər doğma olan ikinci bir heyvan yoxdur. Ən əski türk boylarından bəzilərinin düşüncələrinə görə, türklərin kökəni nə zamansa göylərdən qanadlı atla gəlmişdir. Əski uyğur düşüncəsinə görə at Tanrı tərəfindən savaş üçün göndərilmiş, şaman türklərinə və əski monqollara görə atın özü göylərdən gəlmiş, qazaxlar isə Tanrının atı küləklərdən yaratdığını düşünmüşlər. Mahmud Kaşğarlının "Divani-lüğət-it türk" əsərində 200 dəfəyə yaxın, Dədə Qorqud dastanlarında 90 dəfədən artıq at sözü işlənir (Hacıheydərli, 2019). Professor Əzizxan Tanrıverdi "Dədə-Qorqud kitabı"nda at kultu" haqqında yazır: "Türkologiyada atın qədim türk

cəmiyyəti üçün yaxınlıq dərəcəsi müəyyənləşdirilmiş, at, ad və ata sözlərinin eyni kökdən törədiyi, semantika baxımından eyni yuvaya daxil olduğu əsaslandırılmışdır: Qədim türklərdə ad (şəxs adı) at şəklində işlənmişdir. İlk baxışda elə hiss olunur ki, ad və at arasında heç bir bağlılıq ola bilməz. Əslində isə Azərbaycan və digər türk dillərində atın bu qədər yüksək qiymətləndirilməsinin əsas səbəbi ad (şəxs adı) ilə at (heyvan) sözlərinin eyni məna ifadə etməsi ilə bağlıdır. Şəxsə ad verəndə elə at da verilirdi. Ad almaq həm də at almaq demək idi... (Tanrıverdi, 2012, s. 102). Hüseyn Nihal Atsız da "Türklerin türküsü" şerində atı Türk mədəniyyətində ordu, güc, azadlıq simvolu kimi vermiş, Türk ordusunun bəşəriyyətin ilk çağlarından mövcud olmasından bəhs edir. Türkün hərbi, iradə gücünü, əhatəli elmə, ağıla sahib olduğunu "Türk gücü bir yıldırım, Türk bilgisi bir deniz" misrasında əks etdirir.

Delinse yer, çökse gök, yansa, kül olsa dört yan,
Yüce dilege doğru yine yürürüz yayan,
Yıldırımdan, tipiden, kazırğadan yılmayan,
Ölümlerle eglenen tunc ürekli Türkleriz (Atsız, 2023, s. 81).

Hüseyn Nihal Atsız bu bənddə "Yüce dilek" adlandırılan milli ideala – Turana − "Qızıl Alma"ya doğru gedən yolda Türklərin qarşısına çıxan çətinlikləri hiperbola (şişirtmə) vasitəsilə göstərməklə Türklərin milli ideal uğrunda necə qətiyyətli, fədakar, dönməz, ölümü özünə əyləncə bilən ürəkli, qorxmaz, sərt və iradəli olduğunu ifadə etmişdir.

Hüseyn Nihal Atsızın bu şeirdə istifadə etdiyi bədii təsvir vasitələri olan hiberbola, metafora, şəxsləndirmə, simvolizm kimi bədii vasitələr şeirin təsir gücünü artıraraq Atsızın Türkçü, Turançı və millətçi fəlfəsini daha qabarıq şəkildə təzahür etdirir. Şair "Türklerin türküsü" şeirində ideoloji güçü ilə Türkçü, Turançı və Millətçi bir Türk obrazı yaradaraq oxucusuna çağırış edir. Belə ki, Hüseyn Nihal Atsız şeirdə Türk dedikdə yalnız Türkiyədə yaşayan Türkləri deyil, ümumilikdə Türk millətini, Turan bayrağı altında birləşəcək Orta Asiya, Azərbaycan, Krım, Qafqaz, Çin türklərini də nəzərdə tutur. Rüstəm Behrudinin aşağıdakı misraları da məhz bu motiv üzərində qurularaq eyni mənanı kəsb edir.

Xəzəri, Baykalı, Aralı gördüm,
Gördüm can üstədir, yaralı gördüm,
Tanrını bəndədən aralı gördüm,
Salam, Dar ağacı!
Əleykümsalam! (Behrudi, 2022, s. 9)

Bu misralarda Rüstəm Behrudi Azərbaycan və ümumilikdə Qafqaz türk xalqlarının, Sibir və Orta Asiya türklərinin, Qazaxıstan və Özbəkistan arasında yerləşən Türküstanın, bir sözlə, Türk coğrafiyasının hüdudlarının genişliyini ifadə edir. Lakin "can üstədir, yaralı gördüm" deməklə onların bir-birindən ayrı düşdüklərinə, parçalandıqlarına işarə edir, Turan ideologiyasının hələ gerçəkləşmədiyini bildirir. "Tanrını bəndədən aralı gördüm" misrasında şair Türk xalqlarının ayrı düşdüklərini Tanrı ilə bəndənin uzaq düşməsi kimi poetikləşdirir, müqayisə Türk ideologiyasında Tanrı inancının mühüm yer tutduğundan irəli gəlir.

Şeirin başqa bir bəndində;

Qırğızam, özbəyəm, qazax, türkmənəm,
Başqırdam, kərkükəm, elə görk mənəm.
Sənin gözlədiyin qərib türk mənəm!
Salam. Dar ağacı!
Əleykümsalam! (Behrudi, 2022, s. 11)

Burada isə türkdilli xalqların adlarını çəkərək bu xalqların hamısını bir "mən" də birləşdirir və ortaq türk ruhunu şeirə inteqrasiya edir. Şeirin başqa bir bəndində şair öz fikirlərini belə ifadə edir:

Çarxı tərs fırlanır fələk qarının,
Turan kölgəsində budaqlarının
Rəngi bayrağımda yarpaqlarının
Salam, Dar ağacı,
Əleykümsalam! (Behrudi, 2022, s. 9).

Bu misralarda şair budaqlar deyərkən türk xalqlarını, onların eyni "ağacın budaqları" olduğunu, kök birliyini, yarpaqlar deyərkən xalqların özünü, xalqın qanının və ruhunun bayraqda təcəssüm olduğunu ifadə edir, bu misralar Türkçülük, Turançılıq ideologiyasının bariz nümunəsidir. Ümumiyyətlə, Türk milləti bayrağına çox böyük dəyər verən bir millətdir. Bu millətin övladları şəhid olar, amma bayrağının endirilməsinə canı bahasına yol verməz. Hüseyn Nihal Atsızın poeziyasında bu motiv "Türkçülük bayrağı" şeirində öz əksini tapır, Behrudi poeziyasında yuxarıda verilən şeir parçası Atsız məfkurəsi ilə tam üst-üstə düşür. Hüseyn Nihal Atsızın yaradıcılığında Türkçülük və Turançılıq ideologiyasından danışarkən onun 1973-cü ildə "Ötükən" jurnalında çap etdirdiyi "Türkçülük bayrağı" adlı şeirini xatırlamamaq mümkün deyil. Şeirin əsas mövzusu **Türkçülük** və Turançılıq ideologiyasıdır. Atsız burada yalnız milli kimliyi vurğulamaqla kifayətlənmir, eyni zamanda **bütün Türk dünyasının birliyi** və ortaq məqsədi uğrunda mübarizə ideyasını təqdim edir, "bayraq" simvolizmi üzərindən bu birliyi təcəssüm etdirir.

Bildiyimiz kimi Boz Qurd türk mifologiyasının və ideologiyasının ən qüdrətli simvolu, qurtuluşun, dirənişin, milli kimliyin rəmzidir. Hüseyn Nihal Atsız Türk mifologiyasında yol göstərən, xilasedici simvol olan Bozqurdu bu şeirdə Türklərin simvolu kimi təqdim edir.

Bayrak ki onun gölgesi Bozkurtları toplar,
Bayrak ki bütün kaybedilen yurtları toplar! (Atsız, 2023, s. 94).

Rüstəm Behrudi isə aşağıdakı misralarda öz timsalında bütün Türklərin Bozqurda çevrilib Turan sevdasının qiyamətə qədər yurd yeri olmasını Tanrıdan istəyir.

Körklü tanrım, bir yurd olum,
Doğma olsun sağım, solum,
Dönüb axır boz qurd olum,
Qalım qiyam-qiyamətə (Behrudi, 2017, s. 42).

Türk mifologiyasında Tanrıya müraciət yaradıcı ilahi qüvvəyə bağlılığı ifadə edir, Rüstəm Behrudinin bu misrada əski türklərin inancı olan Göy Tanrıya müraciəti dini anlamda deyil, mifoloji anlam daşısa da daha çox milli və ideoloji məfkurə ifadə edir.. Belə ki, şair bu bənddə assimilyasiyaya qarşı bədii etiraz edərək yad təsirlərdən uzaq Turan bayrağı altında türklərin coğrafi olaraq bir yerdə yaşadığı, müstəqil, süveren, milli və mənəvi dəyərlərin bütövləşdiyi bir yurdu-Turanı, Türkçülük və Turançılıq kontekstində doğma Vətən kimi təqdim edir. Professor, mifoloq Mirəli Seyidov yazir: "*Türk mifik düşüncə tərzi, Turan və türk milliyyətçiliyi XX əsrin sonlarında Rüstəm Behrudinin şeirəri ilə yenidən həyat qazandı*" (Behrudi, 2015, s. 37).

Hüseyn Nihal Atsız "Türk duyğusu her Türkçüye en tatlı kımızdır" deyərkən Türk kimliyinin əsl Türkçü üçün ruhani bir ləzzət, ilham və qida mənbəyi olduğunu "en tatlı kımızdır" sözü ilə ifadə edir, çünki kımız Türk mədəniyyətində müqəddəs və simvolik içkidir. "Türk ülküsü candan da aziz bayrağımızdır" misrasında Atsız "türk ülküsü" ifadəsində Türk birliyi − Turanı nəzərdə tutaraq Türkçülüyün və Turançılığın insan həyatından da qiymətli olduğunu göstərir.

Nerden geliyor? Tanrıkut' un ordularından!

Lakin bize bir beyt okuyur kutlu yarından: (Atsız, 2023, s. 94)

Bu misralarda Tanrıkut dedikdə tanrı tərəfindən seçilmiş bir lider, yaxud tanrısal bir soy, məsələn; Göytürk hökmdarı düşünülür. Tanrıkutun ordularındakı mübariz Türk savaşçıları gələcəkdən bir xoş müjdə gətirirlər.

Rüstəm Behrudi yaradıcılığında Türkçülük və Turançılıq ideologiyasının bədii təsviri baxımdan "Bir dərdim var çeşid-çeşid" adlı şeiri də mühüm yer alır.

Ayrılıqla, yurdla yaşıd,
Bir dərdim var çeşid-çeşid.
Ey dözümüm, məni eşit,
Varaq gedək həqiqətə (Behrudi, 2017, s. 42).

Burada "dərd" sözü nə şairin, nə də digər bir şəxsin dərdi, iztirabı mənasını daşıyır, Türk millətinin milli kimlik itkisi, parçalanması, assimilyasiyası, Azərbaycan, Türkiyə, Türküstan, Sibir, Altay, Krım, Doğu Türküstan və digər türkdilli bölgələrə qədər coğrafi genişlikdə yaşayan türkdilli xalqların ortaq birlik həsrətini-ümumtürk dərdi nəzərdə tutulur. Bütün türklərin birliyi ideyası isə Turançılıq ideologiyasının poetik ifadəsidir, şair "yurdla yaşıd" dərdinin olmasını deməklə tarixi yaddaşa dönür və bu ayrılığın tarixi qədimliyini göstərir. Rüstəm Behrudinin çeşid-çeşid dərdi isə ana dilinin itirilməsi, mədəni və siyasi haqsızlıqlar, Türk torpaqlarının yad əllərdə olmasını ifadə edir. Şairin "Dözüm"ünə müraciəti isə heç vaxt təslim olmayan Türk ruhuna, mübarizlik əzminə, milli oyanışa, "varaq gedək həqiqətə" misrası isə tarixi kökə dönmək, milli kimliyi dərk etmək, Turan birliyinə doğru yol almağa  bir çağırışdır.

Bu məqalədən belə nəticəyə gəlmək olar ki, Rüstəm Behrudinin Boz Qurd olaraq ümumtürk dirçəliş hərəkatının bir obrazına, Türklüyün simvoluna çevrilib əbədiyyətə qədər yaşamaq, qiyam-qiyamətə qalmaq istəyi Turan ideyasının əbədi yaşamasını ifadə edir.

Hüseyn Nihal Atsızın diqqət çəkən şeirlərindən biri də "Davetiye" şeiridir. O, bu şeiri italyan diktatoru Benito Mussoliniyə xitab etmiş, o dövrdəki ictimai-siyasi vəziyyətə cavab olaraq yazmışdır. Hüseyn Nihal Atsız Türk gəncliyinin gələcəyin daşıyıcısı olduğunu düşünərək "Davetiye" şeirində onları milli dirçəlişə dəvət edir. "Davetiye" şeiri yalnız bir poetik mətn deyil, eyni zamanda ideoloji bir çağırışdir, milli dəyərlərin, milli şüurun oyanması, milli ruhun − Türk ruhunun yenidən doğulması, tarixi yadddaşın oyadılması üçün yazılmış bir manifestdir. Türk millətinin tarix boyu yaşadıqlarını çox yaxşı bilən Hüseyn Nihal Atsız bu bilgiləri poetik şəkildə öz şeirlərinə gətirmiş, bu baxımdan onun qəhrəmanlıq, Türkçülük, Turançılıq ideyalarını təbliğ etdiyi şeirləri, xüsusilə də "Davetiye" şeiri  Türk ədəbiyyatında ruhverici bir mövqeyə malikdir. Hüseyn Nihal Atsız "Davetiye" şeirində yazir:

Ey Benito Musolini!  Ey qayet yüce,
İtalyanlar başvekili mühterem  Düçe!
İşittim ki yelkenleri edip de fora
Gelecekmiş orduların yeşil Bosfora.
Buyursunlar....Bizim için savaş dügündür;
Din Arabın, hükük sizin, harp Türklüyündür!
Açlar nasıl bir istekle koşarsa aşa,
Türk eri de öyle gider kanlı savaşa! (Atsız, 2023, s. 63).

Bu misralarda Hüseyn Nihal Atsız torpaq uğrunda savaşın Türklər üçün bir toy-bayram, şərəfli bir iş olduğunu iddia edir, düşmənləri də toy-düyün adlandırdığı savaşa dəvət edir. İslamın ərəblərə, Avropa qanunlarının italnyanlara, hərbin, cəngin isə Türklüyün olduğunu deməklə Türklük ideologiyasının üstünlüyünü göstərərək bir kontrast yaradır.  Eyni zamanda aclar yeməyin üzərinə

necə atılırsa Türk igidləri də savaşa elə gedirlər fikrini ifadə etməsi türklərin fədakarlığı, torpaqsevərliyi, millətə sadiqliyini empatiya vasitəsilə yüksək pafosla ifadə edir. Şeirin digər bəndində şair yazır:

Kalem, fırça, mermer nedir? Birer oyuncak!
Şaheserler süngülerle yazılır ancak! (Atsız, 2023, s. 63).

Bu misralarda Hüseyn Nihal Atsız ədəbiyyat, incəsənət və heykəltaraşlıq sənətinin simvolu olan qələm, fırça və mərməri "oyuncaq" adlandıraraq savaşın simgəsi olan süngülərlə döyüş meydanlarında əldə edilən şan-şöhrəti hər şeydən üstün tutur, şeirdə antiteza, kontrast kimi bədii təsvir vasitələri ilə şeirin təsir gücünü artırır, savaşın milli qürur yolunda bir vasitə olduğunu, savaş meydanlarında qazanılan qələbələri süngülərin şah əsəri olduğu düşüncəsini metaforalarla ifadə edərək gənclərə mesaj ötürür.

Hüseyn Nihal Atsız bütün ömrü boyu Türkçülük və Turançılıq ideologiyası uğrunda yorulmadan mübarizə aparmışdır, lakin bir gün Atsız olmasa belə bu ideologiyanın davam edəcəyi, məğlub olmayacağı, Türkçülük və Turançılıq ideologiyasının əbədiliyi fikri onun aşağıdakı misralarında bir daha öz əksini tapır.

Darbeyle gönüllerde yatan ülkü silinmez!
Atsız yere düşmekle bu bayrak yere inmez!.... (Atsız, 2023, s. 94)

**Nəticə / Conclusion**

Hüseyn Nihal Atsız və Rüstəm Behrudi Türk millətinin ən önəmli fikir və düşüncə adamlarıdırlar. Onların yaradıcılıqlarının ana xəttini Türkçülük və Turançılıq təşkil edir. Hüseyn Nihal Atsız və Rüstəm Behrudi poeziyasında yalnız poetik xüsusiyyətlər deyil, milli və ideoloji bir çağırış var. Tarixi kökə qayıdış, tarixi yaddaş, yüksək vətənpərvərlik, fədakarlıq, Türk millətçiliyi duyğusu, ali bir məqam kimi tərənnüm olunan şəhidlik zirvəsi Hüseyn Nihal Atsız və Rüstəm Behrudi poeziyasının mərkəzində durur. Hər iki şəxsiyyət üçün qəhrəmanlıq zamandan və məkandan asılı olmayan insanın içində olan bir ruh halıdır. Bu ədiblər şeirlərində Türk milliyyətçiliyi və qəhrəmanlıq ruhunu önə çıxararaq güclü, emosional, Türk gəncliyinə bir çağırış manifesti olan poetik mənzərə yaratmışlar. Atsıza görə qəhrəmanlıq epik, milli və mənəvi bir missiyadır, onun şeirlərində Türkçülük və Turançılıq uğrunda mübarizə aparmaq və can vermək kimi fikirlər romantik və idealist bir yanaşma ilə təqdim olunur. Hüseyn Nihal Atsız və Rüstəm Behrudi millətin yaşaması, Türkçülük, Turançılıq uğrunda bir türkün geriyə dönüşün olmadığını gözə alaraq həyatından keçməsini ruhi saflıq, fədakarlıq, ideala bağlılıq kimi təqdim edərək qəhrəmanlığın bir seçim deyil, bir borc olduğunu gənclərə çağırış edir. Hüseyn Nihal Atsız və Rüstəm Behrudi üçün Türklük müqəddəs bir kimlik, Türançılıq isə bu kimliyin ən ali məqsədidir. Hüseyn Nihal Atsız və Rüstəm Behrudi şeirlərində milliyyətçi düşüncələrini qabarıq şəkildə ifadə edən Türk milliyyətçiləridirlər. Hüseyn Nihal Atsızın türkçülük və Turançılıq ideologiyasının davamçısı olan Rüstəm Behrudi çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndəsi kimi həm milli ədəbiyyata, həm də ideoloji mübarizəyə öz böyük töhfələrini vermişdir.

## Ədəbiyyat / References

Atsız, H. (2018). *Makaleler III.* İstanbul: İrfan Yayınevi.

Atsız, H. (2023). *Yollların sonu.* İstanbul: Ötüken.

Babayeva, E. (2022). Ahmet Hikmet Müftüoğlu'nun "Gönül Hanım" Romanında Orhun Yazıtları ve Milli Kimlik Problemi. *1. ULUSLARARASI TÜRKOLOJİ KONGRESİ: ARAYIŞLAR VE YÖNELİMLER*, (pp. 425-431). Karabük.

Behrudi, R. (2015). *Görmədiyimiz Adam Və Yaxud Xəzəllərin Tüstüsü.* Bakı: Qanun.

Behrudi, R. (2017). *Şaman Duasından Dar Ağacına.* Bakı: Xan.

Behrudi, R. (2017). *Rüstəm Behrudinin Özü Haqqında Bilmədikləri*. Bakı: Hədəf.

Behrudi, R. (2021). *Mükəmməl Yalan*. Bakı: Xan.

Behrudi, R. (2022). *Qızıl Alma.* Bakı: Xan.

Behrudi, R. (2022). *Məzarlıqda Bitən Yovşan.* Bakı: Xan.

Hacıheydərli, N. (2019). Ümumtürk Kültüründə At. Retrieved from https://manera.az/index.php?newsid=12048#sel=65:8,65:8

Hacılı, A. (1982, fevral 19). Dünya Ağac motivi Azərbaycan Mifologiyasında. *Ədəbiyyat və incəsənət*.

Qasımlı, A. (2012, May 5). *Türklər (Tarixi oçerk)*. Bakı.

Tanrıverdi, Ə. (2012). *Dədə Qorqud kitabında At Kultu.* Bakı: Nurlan.